## *("Bəxtiyar Məmmədzadə - 75" silsiləsindən)*

# ÖMRÜNÜ ÖMÜRLƏRƏ CALAYAN İNSAN

Dünyaya gələndə Allah hər birimizə bir missiya verir, bununla da verdiyi ömürdə insanı sınayır. Bir ömür vicdanla, namusla yaşaya bilmək insandan böyük iradə tələb edir. Hər adam ona verilən vəzifəyə layiqincə əməl edə bilmir. Yanılmalar, sürüşmələr, yoldan azmalar, nəfsə tabe olmaqlıq çox vaxt bu missiyanın tam yerinə yetirilməsinə mane olur. Allahın hidayət etdiyi, nəfsinə üstün gələn insanlar isə bu sınaqlardan ləyaqətlə çıxır. Həyatım boyu nəfsinə ox batırmağı bacaran insanların axtarışında oldum. Çox rastlamadım, amma heç rastlamadım da deyə bilmərəm. Adətən insan öz idealını müəllimləri içərisində axtarır. Hələ orta məktəbdən çox sevdiyim müəllimlərim oldu, sonra tələbəlik illəri, universitet müəllimlərim...

Ağlımın, düşüncəmin yetkin çağında, insanları daha çox tanıya bildiyim zamanlarda bəzən tapdıqlarımı itirən vaxtlarım da oldu. Amma Allah rastıma Samət Əlizadə kimi, Bəxtiyar Məmmədzadə kimi müəllimlər çıxartdı. Elə müəllimlər ki, bu dünyadan köçüb gedəndən sonra belə mənimçün diri qaldılar. Hər dəfə yubileyləri ərəfəsində onlar haqqında nəsə yazmağı özümə borc bilirəm. Bu il Bəxtiyar Məmmədzadənin 75 illik yubileyidir. Yaşadığımız çətin dönəmdə hörmətli müəllimimin yubileyini keçirib-keçirə bilməyəcəyimdən əmin deyiləm. Amma haqqında nəsə yazmasam, bunu özümə bağışlaya bilmərəm...

Azərbaycan Yazıçılar birliyinin üzvü, ömrünün sonuna kimi Bakı Dövlət Universitetinin müəllimi, Bakı Asiya Universitetinin şərqşünaslıq və filologiya fakültəsinin dekanı, akademik səviyyədə biliyə malik filologiya elmləri namizədi Bəxtiyar Məmmədzadə (1947-2010) ziyalı ailəsində dünyaya gəlmişdir. Atası Məmməd Məmmədzadə uzun illər Azərbaycanın müxtəlif bölgələrində I katib vəzifəsində çalışmışdır. Bəxtiyar əslən bakılı olsa da, Sabirabadda doğulmuşdur. Vəzifəli şəxsin övladı kimi böyüməsinə baxmayaraq, Bəxtiyar olduqca sadə, təvazökar bir insan kimi yetişmiş, bir dəfə də olsun öz keçmişi ilə fəxr etməmişdir. Çünki, onun buna ehtiyacı olmamışdır. Filologiya elmləri doktoru, professor Yusif Seyidov "İtirə-itirə gedirik, Allah axırından saxlasın" adlı yazısında həmkarı haqqında söz açır, onun elmindən, ədəbindən, əxlaqından danışır və yazır: "Bəxtiyarın bu qədər tərbiyəli olması, müsəlman əxlaqına malik olması, mənim fikrimcə, üz amillə bağlıdır. Birinci ailə həyatı ilə əlaqədardır, sözün geniş mənasında ailə həyatı ilə. Yəni soy-kökü ilə. O, müqəddəs bir ocaqda dünyaya gəlmiş, bu ocaqda boya-başa çatmış, tərbiyə almış, o ocağa sadiq qalmış, öz qurduğu ailəsi ilə də ocağın ənənəsini qoruyub saxlamış, davam etdirmişdir. Qurani-Kərim o ocağın dərs kitabı olmuşdur...".

Bəxtiyar Bakıdakı S.S.Axundov adına 172 saylı orta məktəbdə təhsil almışdır. Orta məktəbdə bütün fənləri əla oxumuş, həm texniki, həm də humanitar elmlərə marağı olmuş, hətta şeirlər yazmış, dövri mətbuatda dərc etdirmişdir. Bir dəfə evlərində olanda oğlu Elşad dedi ki, onun qəzetlərdə çıxan şeirlərini toplamışdır. Uzun illər BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı olan, Əməkdar müəllim, dosent Elxan Əzizov "Vaxtsız sönən parlaq ulduz" adlı məqaləsində məktəb illərində ömrünün sonuna kimi dostluq etdiyi Bəxtiyar müəllim haqqında gözəl xatirələrini oxucularla bölüşmüşdür ki, bu da bizə Bəxtiyar müəllimin məktəb illərindəki fəaliyyəti ilə tanış olmaq imkanı verir. Müəllif xatirələrindən birində yazır: "Bəxtiyarla mən yuxarı sinif şagirdləri arasında riyaziyyat, fizika və kimya üzrə Bakı olimpiadalarında dəfələrlə iştirak edib, diplomlar almışıq. Lakin ədəbiyyata da böyük həvəsimiz var idi. Tez-tez "Azərbaycan pioneri" qəzetində şeir və yazılarımız çap olunurdu. Bir gün məşhur şair olan Baş redaktor Tofiq Mütəllibov məktub göndərərək bizi redaksiyaya dəvət etdi. Görüş zamanı bildirdi ki, "Azərbaycan pioneri" qəzetinin nəzdində Gənc Müxbirlər Şurası yaratmaq fikrindədir. Fəal müəlliflərdən sayıldığımız üçün məni şuranın sədri, Bəxtiyarı isə müavin təyin etdi. Bir neçə il ərzində biz redaksiyaya göndərilən yazıları seçərək, qəzetin sonuncu səhifəsinin materialını hazırlayırdı". Bu əlavə işlər heç də dostları dərsdən yayındırmamış, hər ikisi məktəbi qızıl medalla bitirmişlər.



Bəxtiyar Məmmədzadə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. Orta məktəbdə olduğu kimi universitetdə də əla oxuyan Bəxtiyar həm müəllimləri, həm də tələbə yoldaşları tərəfindən sevilmişdir. Filologiya elmləri namizədi Firuz Mehdiyev "Hamımızın əzizi Bəxtiyar" adlı yazısında tələbəlik illərini, Bəxtiyarla ilk tanışlıq gününü xatırlayır, kurs işi yazanda onunla məsləhətləşdiklərini, imtahanlardan qabaq bilmədiklərini ondan soruşduqlarını bildirir, daha sonra çox ciddi müəllimlərin, o cümlədən, Fərhad Zeynalovun, Firudin Hüseynovun, Samət Əlizadənin, başqa tələbələrdən fərqli olaraq, Bəxiyarla öz səviyyələrində danışdıqlarını qeyd edir və yazır: "Bütün bunlar Bəxtiyarın yüksək mədəniyyətindən, davranışından və danılması mümkün olmayan savadından irəli gəlirdi. Nisbətən cavan, ərki çatan müəllimlərə və yaxın tələbə dostlarına "bəy" deyə müraciət edirdi. Bəy sözünün müraciət formasında deyilməsini ilk dəfə tələbə vaxtı Bəxtiyardan eşitdim. Onu da qeyd edim ki, Bəxtiyarda bir bəy ləyaqəti, bəy davranışı vardı. Sözün çəkisini, gücünü onunla söhbətdə daha yaxşı dərk edirdik. Kiminsə haqqında nəsə yazanda bu barədə nə qədər yazmaq mümkün olduğunu bildirirlər. Belə fikir bir az şablontəhər alınır. Qəlblə, ürəklə onu deyə bilərəm ki, Bəxtiyarla bir dəfə təmasda olub kəlmə kəsən adam bir kitab yaza bilər. Bəxtiyar fəlsəfə idi, Bəxtiyar dil idi".

Firuz müəllim universitetdə bizə müasir Azərbaycan dilindən dərs deyirdi. İkinci təhsil aldığım üçün müəllimlərim mənə tələbədən çox dost kimi baxırdılar. Firuz müəllimlə də münasibətimiz yaxşı idi, həmişə mənə "Sən bizim qız qardaşımızsan" deyirdi. Söz düşəndə Bəxtiyar müəllim haqqında ağız dolusu danışırdı. Mən Bəxtiyar müəllimin tələbəlik həyatını Firuz müəllimin danışdığı xatirələrdən öyrənmişəm. Mənim sevimli müəllimim olduğunu bilirdi. Dərsdən çıxanda çox vaxt metroya birlikdə gəlirdik və yol boyu, eləcə də metroda söhbətimiz Bəxtiyar müəllimdən olurdu. AzərTac informasiya agentliyinin şöbə müdiri Ağaqulu Niftəliyev "Bəxtiyar Məmmədzadə insanlığın məhək daşı" adlı xatirəsində tələbəlik illərindən başlayaraq dostu haqqındakı xatirələrini oxucularla bölüşür və yazır: "Yola saldığım illərdə vəzifəmlə əlaqədar minlərlə insanla görüşmüşəm, həmsöhbət olmuşam. Onların arasında hələ Bəxtiyar qədər insanlıq möcüzəsinə rast gəlməmişəm. İnsanlığa xas bütün müsbət keyfiyyətləri Allah onda cəmləmişdi. Belə adamlara yalnız bədii ədəbiyyatda yazıçının müsbət qəhrəman kimi ümumiləşdirməyə çalışdığı obrazlarda rast gəlmək olar. Bu mənada Bəxtiyar həyatda çox nadir rast gəlinən (bəlkə də olmayan) şəxsiyyət, insanlığın məhək daşı idi".

Bəxtiyar Məmmədzadə 1969-cu ildə universiteti Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmiş, təyinatla Puşkin (indiki Biləsuvar) rayonunun Xirmandalı kənd orta məktəbinə Azərbaycan dili və ədəbiyyatı müəllimi göndərilmişdir. Həyat yoldaşı Xumar xanım mənə Xırmandalı kənd məktəbində Bəxtiyar müəllimlə bir yerdə işlədikləri zaman baş verən maraqlı olaylardan danışardı. Üç il birlikdə çalışdıqları məktəbdə onların nişanlı olduqlarını kimsə hiss etməyibmiş. Gör nə qədər böyük əxlaq sahibi olmuşlar. Hətta Xumar xanımı bəyənən birisi Bəxtiyardan onun necə qız olmasını soruşanda belə, Bəxtiyar müəllim nişanlısı olduğunu bildirməyibmiş. Şair, filologiya elmləri namizədi Ağahəsən Bədəlzadə "Əziz dostum Bəxtiyar üçün nekroloq əvəzi! Yaralı düşüncələr..." adlı yazısında itkilərdən söz açır, gözsüz belə görünən itkilərin əzəmətini qeyd edir və belə itkilərdən biri olan Bəxtiyar müəllim haqqında xatirələrini oxucu ilə bölüşür, ona yazdığı şeirləri təqdim edir, xarakterik xüsusiyyətlərindən bəhs edərkən yazır: "Bəxtiyar Yusif peyğəmbər (ə) qədər təmiz, gözü tox, etibarlı, məğrur, sözündə bütöv, dediyinin ağası olan bir insan idi. Biz belə bir insanı itirdik. O öz boyunu sıxan, gözə soxulmayan böyük alim idi. O özünü kiçiltdikcə böyük görünürdü. Onda alimlik iddiası yox idi, alimlik istedadı, alimlik səbri var idi. O, elmlə elmi birləşdirməyi bacarırdı. O, diletantlığın, yarımçıqlığın, cahilliyin, obskurantizmin, saxta şöhrətin düşməni idi. Bəxtiyar böyük alim ola-ola özünü şagird, tələbə kimi aparırdı. Heç vaxt "bilirəm" sözünü işlətməz, "Mənə elə gəlir ki, belədir" deyərdi...".

Bəxtiyar müəllimin istedadı, dərin biliyi, elmə qeyri-adi həvəsi, öz üzərində çalışması səbəb oldu ki, Allah yol açdı və o, 1972-ci ildə doğma universitetinə dəvət aldı, ilk əvvəl hazırlıq kurslarında dərs dedi. Heçnə dəyişmədi. Bəxtiyar müəllim elə əvvəlki Bəxtiyar olaraq qaldı. Yenə də öz mənafeyini başqalarına qurban verdi, özünü deyil, hey başqalarını düşündü. Universitetdə bizim folklor müəllimimiz olan filologiya elmləri doktoru Nizami Xəlilov "Abırlı insan" adlı məqaləsində xatirələrini bizimlə bölüşür, Bəxtiyar müəllimin xeyirxahlığından söz açır və yazır: "1982-83-cü illərdə Bəxtiyar müəllimin dərslərinin çox hissəsi hazırlıq kursunda idi. O vaxtlar hazırlıq kursundan mənə də bir qrup vermişdilər. Bəxtiyar müəllim hüquq fakültəsinin hazırlıq kursunu mənə verdi. Hüquq fakültəsinin hazırlıq kursunda dərs demək bir az hörmətli sayılırdı. Mən dedim: -Bəxtiyar müəllim, sən niyə başqa fakültəni deyil, hüquq fakültəsini mənə verirsən? Dedi: - Səni az tanıyırlar, qoy səni başqa fakültələrin müəllimləri də tanısın". İnsanda ürəyin böyüklüyünə bax! Xeyirxahlığın zirvə nöqtəsinə bax! İndi belə bir insan tapmaq olarmı???

Bəxtiyar Məmmədzadə ömrünün sonuna qədər universitetdə əvvəl baş müəllim (1980-1984), sonra dosent (1984-2009) vəzifələrində çalışdı. Sovet dönəmindən sonra Bakıda bir sıra özəl universitetlər yaradılmış, Bəxtiyar Məmmədzadə Bakı Asiya Universitetinin Şərqşünaslıq və Filologiya fakültəsinə müəllim dəvət olunmuş, həm də həmin fakültənin dekanı vəzifəsini icra etmişdir (1994-2010). Eşitmişdim ki, Bəxtiyar müəllim həmin universitetdə yeni proqramlar hazırlamış, orada müasir şairlərin əsərləri tədris edilirmiş, hətta mənim yaradıcılığım da ora daxil imiş... Asiya Universitetinin rektoru, filologiya elmləri doktoru, professor Cəlil Nağıyev "Özəl insan, böyük ziyalı Bəxtiyar Məmmədzadə" adlı məqaləsində yazır: "Bəxtiyar hamının işinə yarayardı, amma heç kimdən heç nə ummazdı və istəməzdi. Heç şübhəsiz ki, o həyatda layiq olduğu yeri tuta bilmədi, əslində heç bu yeri tutmağa cəhd də eləmədi. O, sadəcə olaraq, öz vətəndaşlıq borcunu yerinə yetirirdi, yazırdı, yaradırdı, müəllimlik edirdi, bacardıqca da ətrafındakı insanlara yaxşılıq edirdi. Bir sözlə, o, sadə bir müəllim həyatı yaşayırdı. Bəxtiyar mənən çox zəngin bir insan idi. Onun mənəvi aləmi, heç şübhəsiz ki, çox yaxşı bildiyi Şərq müdrikliyi ilə qidalanmışdı. Bütün insanlar kimi onun da həyatında həm ağrılı-acılı, həm də fərəhli-şirinli günlər olmuşdur. Bəxtiyarın həyatında bəlkə ən xoş günlər oğlanılarının (onun üç oğlu var, Allah onlara uzun ömür versin) toyunu elədiyi günlər olmuşdur.

Bəxtiyar əsl bakılı balası idi. Bütün bakılılar kimi o da baməzə, yumorlu adam idi. Nə qədər fikirli, dərdli olsa da heç vaxt bunu büruzə verməzdi, hər şeyə özünəməxsus bir yumor hissi ilə yanaşardı, ən ciddi suallara belə özünəməxsus bir yumorla cavab verərdi. O, həyatı sevirdi, insanları sevirdi, amma çox əfsuslar olsun ki, biz ona layiq olduğu qiyməti verə bilmədik, onun böyük sevgisinə xırdaca bir insani qayğı ilə də olsa cavab verə bilmədik".

*(Davamı var)*

***Sona*** Xəyal